Yunanıstanın dövlət, hökumət başçıları, dini rəhbərlərinin də qatıldığı və 135 ölkədən 1500 nəfərin iştirak etdiyi beynəlxalq tədbirdə korrupsiyanın insanların həyatı ilə birbaşa əlaqəsindən, onun törətdiyi fəsadlardan, iqlim dəyişikliyi, enerji və su ehtiyatlarından qeyri-səmərəli istifadə və s. məsələlərdən ətraflı söhbət açılmışdır. Konfransda uşaq əməyindən istifadə, insan orqanlarının satılması, insana qarşı zorakılıq, narkotika ticarəti, ailə hüquqlarının pozulması, uşaqların mühafizəsi və s. məsələlərə də toxunulmuşdur.

Beynəlxalq Antikorrupsiya Konfransında Azərbaycanı Şəffaflıq Azərbaycan Təşkilatının rəhbəri Rəna Səfərəliyeva, Təhsil Nazirliyinin Ali və orta ixtisas təhsili şöbəsinin böyük məsləhətçisi Ənvər İmanov, QHT rəhbərlərindən İnqilab Əhmədov və Vüqar Bayramov təmsil etmişlər.

Konfransın sonunda Afina Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə ətraf mühitin, su ehtiyatlarının qorunması və onlardan səmərəli istifadə edilməsi, iqlim dəyişikliyinin törətdiyi fəsadların aradan qaldırılması və s. məsələlər, korrupsiya ilə mübarizə məqsədilə planet əhalisinin maarifləndirilməsi önə çəkilmişdir.